# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Bakı İdarəetmə və Texnologiya kolleci

# “Menecmentin əsasları”

fənninin

# PROQRAMI

040401 - ‘’Mühasibat uçotu”
040410 - “Bələdiyyə təsərrüfatının təşkili"

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
( Protokol № 1 )

**Bakı 2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — Qəhrəmanova Yaqut Bəşir

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — Bayramova Firəngiz Qəmbər

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya Kollecinin fənn müəllimi — 1.Zeynalova Reyhan Feyruz

Azərbaycan Əmək və Sosial münasibətlər Akademiyası. “Maliyyə” fakültəsinin dekanı İqtisad üzrə fəlsəfə doktoru — 2. H.Ə. Mirzəyeva

# **<u>İZAHAT VƏRƏQİ</u>**

**Fənnin tədrisinə ayrılan saatların miqdarı- 60 saat**

Tədris kursu tədris ilinin birinci semestrində keçirilir. Bu ixtisas qruplarında ümumi tədris yükü 60 saat olub, mühazirəyə 30, seminara da 30 saat ayrılmışdır.

"Menecmentin əsasları" fənninin proqramı bazar münasibətləri şəraitində xalq təsərrüfatının tarazlı inkişafını, təsərrüfat mexanizminin tənzimlənməsi, demokratik iş üslubunun formalaşması, idarə olunan obyektin düzgün inkişaf strateqiyasının verilməsi, idarəetmənin keyfiyyət və səmərəliliyinin qiymətləndirilməsi, kadrların seçilməsi və idarə edilməsi, idarəetmə sistemində qərarların hazırlanması, verilməsi və s. mühüm məsələlərin öyrənilməsini əhatə edir. Bu baxımdan mütəxəssislərin idarəetmə elminə yiyələnməsi müasir dövrün ən başlıca və zəruri tələbidir. "Menecmentin əsasları" fənninin öyrənilməsi tələbələrə menecmentin iqtisadi və təşkilati mexanizmi, onun mütərəqqi forma və metodlarının tətbiq edilməsi, menecmentin xarakterik xüsusiyyətləri, əhəmiyyətli prinsipləri, idarəetmə sistemində əməyin təşkili və başqa mövzular məntiqi ardıcıllıqla öz əksini tapmışdır. Bunlarla yanaşı mövzular tələbələrə ictimai inkişafda baş verən ziddiyyətlərin aşkara çıxarılmasını, onların vaxtında aradan qaldırılmasını, inkişafın gedişinə mane olan obyektiv və subyektiv amillərin neytrallaşdırılmasını və həyata keçirilməsini ətraflı izah edir. Tələbələr fənnin öyrənilməsində qarşıya qoyulan tələbləri yerinə yetirilməsində fəal iştirak etməklə yanaşı, sərbəst təhlil aparmağı bacarmalıdır.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Giriş**.** Menecmentin mahiyyəti, məqsədi, vəzifələri, və münasibətləri. | 2 | 2 |
| 2. | Menecment elminin qanunları. İdarəetmə nəzəriyyələri. | 2 | 2 |
| 3. | Menecmentin iqtisadi mexanizmi. İdarəetmənin əsas prinsipləri. | 2 | 2 |
| 4. | İdarəetmə prosesi və idarəetmənin əsas funksiyaları. İdarəetmədə nəzarət. | 2 | 2 |
| 5. | İdarəetmənin metodları, onların mahiyyəti və tərkib hissələri. | 2 | 2 |
| 6. | İdarəetmə strukturu, ona qarşı olan tələblər və idarəetmə strukturunun növləri. | 2 | 2 |
| 7. | Menecmentin təşkili prosesində informasiyanın rolu və prinsipləri. | 2 | 2 |
| 8. | İdarəetmə qərarlarının məqsədi, təsnifatı, qəbulu və reallaşdırılması. | 2 | 2 |
| 9. | İdarəetmə sistemində əməyin təşkili, onun əsas prinsipləri və tədbirləri. İdarəetmədə keyfiyyət anlayışı, onun prinsipləri. | 2 | 2 |
| 10. | İşçi heyətinin idarə edilməsinin mahiyyəti, prinsipləri və metodları. Kadrların seçilməsi və hazırlanması. Kadr siyasəti. | 2 | 2 |
| 11. | Rəhbərin iş stili və işçilərə təsir edən xüsusiyyətləri. Menecmentdə liderlik. | 2 | 2 |
| 12. | İqtisadi təhlükəsizlik və riskin idarə edilməsi. Antiböhran idarəetmə. | 2 | 2 |
| 13. | Menecment iqtisadiyyatın ayrı-ayrı sahələrində: menecment və maliyyə münasibətlərinin idarə edilməsi. | 2 | 2 |
| 14. | Menecment və sahibkarlıq fəaliyyətinin təşkili. İnnovasiya menecmenti. | 2 | 2 |
| 15. | Dövlət idarəetməsi və bələdiyyə menecmenti. | 2 | 2 |
| **Cəmi: 60 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1.*** **Giriş. Menecmentin mahiyyəti, məqsədi, vəzifələri və münasibətləri – 4 saat**

Menecmentin mahiyyəti, onun nəzəri və əməli inkişafı. Menecmentin məqsədi və vəzifələri. menecmentin ən başlıca məqsədi və vəzifələri cəmiyyətin obyektiv imkanlarından istifadə olunmaslnl təmin etməkdir. İdarəetmə münasibətləri çox cəhətli münasibətlər sistemindən ibarətdir. İdarəetmə münasibətlərinin tipləri. Menecment elminin obyekti və subyekti. İdarəetmə münasibətlərinin məzmunu və xarakteri.

***Mövzu 2.*** **Menecment elminin qanunları. İdarəetmə nəzəriyyələri – 4 saat**

Menecment elminin qanunları. Onların təhlili. Qərb ölkələrinin idarəetmə sahəsindəki təcrübəsi. Qərbdə idarəetmənin təşkiletmə nəzəriyyəsi. İdarəetmə nəzəriyyəsi və təcrübəsinin dövrlərə ayrılması.

***Mövzu 3.*** **Menecmentin iqtisadi mexanizmi. İdarəetmənin əsas prinsipləri – 4 saat**

Menecmentin iqtisadi mexanizminin məzmunu və tərkib hissələri. Təşkil etmə menecmentin iqtisadi mexanizminin tərkib hissəsi. Menecmentin prinsipləri, metodları və funksiyaları. Onların məzmunu və mahiyyəti. Prinsip anlayışı, onun mahiyyəti. İdarəetmə prinsipləri- idarəetmə sistemini istiqamətləndirən rəhbəredici ideyalar və qaydalar sistemidir. İdarəetmə prinsiplərinin cəmiyyətin tələblərinə uyğunluğu. İdarəetmə prinsiplərinin məzmunu və növləri.

***Mövzu 4.*** **İdarəetmə prosesi və idarəetmənin əsas funksiyaları. İdarəetmədə nəzarət – 4 saat**

İdarəetmə prosesinin məzmunu və ümumi xarakterik xüsusiyyətləri. İdarəetmə prosesinin funksionallığı. İdarəetmə funksiyalarının məzmunu və vəzifələri. Menecmentdə planlaşdırma funksiyası, strateji və taktiki planlar. Planlaşdırmanın dəqiqliyi, əhatəliliyi. Strateji planlaşdırma. İdarəetmənin təşkiletmə funksiyası, obyekt və subyekt arasında əlaqələrin və münasibətlərin təşkili. İdarəetmənin koordinasiya funksiyası. Koordinasiya idarəedən və idarəolunan sistemlərin normal inkişafının mühüm şərtidir. Menecmentin funksiyalarının təsnifatına müxtəlif yanaşmalar. İdarəetmə sistemində nəzarət. Nəzarətin dairəsi, nəzarətin formaları. Nəzarət prosesi. Nəzarətin məzmunu. İdarəetmə orqanları tərəfindən nəzarətin həyata keçirilməsi.

***Mövzu 5.* İdarəetmənin metodları, onların mahiyyəti və tərkib hissələri – 4 saat**

Metod anlayışı, idarəetmə metodlarının mahiyyəti. Menecmentdə təsirin əsas vasitələri və onların inkişafı. İqtisadi, təşkilati-sərəncam və sosial-psixoloji metodları. Əmək haqqı və mükafatlandırma, təsərrüfat hesabı- menecmentin iqtisadi metodunun tərkib hissələridir. Mənfəət və rentabelliyin iqtisadi metodda rolu. Menecmentin təşkilati-sərəncam metodu, onun mahiyyəti və tərkib hissələri. İdarəetmənin sosial-psixoloji metodu. Menecmentin metodları sistemi işin səmərəliliyinin yüksəldilməsinə çatmaq, məqsəd və casitələrinin məcmusu kimi. İdarəetmə metodlarının təkmilləşdirilməsi.

***Mövzu 6.* İdarəetmə strukturu, ona qarşı olan tələblər və idarəetmə strukturunun növləri – 4 saat**

İdarəetmə strukturu anlayışı və onun idarəetmənin təşkili ilə əlaqəsi. Strukturun qurulması prinsipləri. İdarəetmə strukturuna qarşı olan tələblər və ona təsir edən amillər. İdarəetmə strukturunun növləri.

***Mövzu 7.* Menecmentin təşkili prosesində informasiyanın rolu və prinsipləri – 4 saat**

İnformasiya anlayışı. Menecmentin təşkili prosesində informasiyanın rolu. İnformasiya sistemləri, onların yayılması və inkişafı. İnformasiyanın təsnifatı. İnformasiya sistemlərinin təşkili prinsipləri. Motivasiya anlayışı və onun mahiyyəti. Motivasiya nəzəriyyəsi.

***Mövzu 8.* İdarəetmə qərarlarının məqsədi, təsnifatı, qəbulu və reallaşdırılması – 4 saat**

İdarəetmə qərarlarının mahiyyəti, məqsədi və xüsusiyyətləri. Qərarların qəbulu prosesinin təbiəti. Qərarların hazırlanması və icra edilməsində rəhbər işçinin rolu. İdarəetmə qərarlarının təsnifatı. Problemlərin aşkarlanması və səmərəli həlli mərhələləri: problemin müəyyən edilməsi, qərarların qəbulu meyarları, alternativ qərarların aşkar edilməsi. Müəssisədə qərarların qəbul edilməsi modeli. Qərarların reallaşdırılması və icra edilməsi.

**Mövzu 9. İdarəetmə sistemində əməyin təşkili, onun əsas prinsipləri və tədbirləri. İdarəetmədə keyfiyyət anlayışı, onun prinsipləri – 4 saat**

İdarəetmə sistemində əməyin təşkilində əsas prinsiplər və tədbirlər. Əmək kollektivində münasibətlərin mahiyyəti və məzmunu. İqtisadiyyatın müasir inkişaf imkanları idarəetmə proseslərinə elmi yanaşmanı tələb edir. Əməyin elmi təşkilinin əsas məqsədləri və tədbirlərin həyata keçirilməsi. İdarəetmədə keyfiyyət anlayışı. Firmada idarəetmənin

keyfiyyətinin qiymətləndirmə prinsipləri və kriteriyaları. İdarəetmə keyfiyyətinin müqayisəli şəkildə təhlil metodları.

***Mövzu 10.*** **İşçi heyətinin idarə edilməsinin mahiyyəti, prinsipləri və metodları. Kadrların seçilməsi və hazırlanması. Kadr siyasəti – 4 saat**

İşçi heyətinin idarə edilməsinin mahiyyəti, tərkibi və təsnifatı. İşçi heyətinin idarəetmə metodları. İşçi heyətinin idarə edilməsinin prinsipləri. Kadrların seçilməsi, kadr hazırlanmasının kompleks proqramı. Kadr siyasəti. Kollektivdə düzgün münasibətlərin qurulması. Kadrların hazırlanmasının mənbələri. Kadrların seçilməsi və qiymətləndirilməsi metodları.

***Mövzu 11.*** **Rəhbərin iş stili və işçilərə təsir edən xüsusiyyətləri. Menecmentdə liderlik – 4 saat**

Rəhbərin iş stili. Rəhbərliyin iş stilinin əsas növləri. Avtoritar, demokratik və liberal iş stilləri. Onların xüsusiyyətləri. Rəhbərin işçilərə təsir metodları. Menecmentdə liderlik. Liderin əmək kollektivinə təsir metodları, liderin xüsusiyyətləri.

***Mövzu 12.*** **İqtisadi təhlükəsizlik və riskin idarə edilməsi. Antiböhran idarəetmə – 4 saat**

İqtisadi təhlükəsizlik və onun təmin edilməsi yolları. Təsərrüfat riski və onun mahiyyəti. Firmanın böhran şəraitindən çıxarılmasında menecerin rolu. Menecerin qəzadan sonrakı şəraitin idarə edilməsində rolu. Antiböhran menecmentinin mahiyyəti. Antiböhran idarəetmə və risklər. Böhranın aşağı salınması imkanlarının və tədbirlərinin həyata keçirilməsi.

***Mövzu 13.*** **Menecment iqtisadiyyatın ayrı-ayrı sahələrində: menecment və maliyyə münasibətlərinin idarə edilməsi – 4 saat**

Maliyyənin mahiyyəti və idarəedilməsi. Maliyyə axınının və maliyyə münasibətlərinin idarə edilməsi. Maliyyə menecmentinin taktika və straseqiyası. Maliyyə riskinin idarə edilməsi, risk-menecment. Mənfəətin idarə edilməsi. Bank menecmenti.

***Mövzu 14.*** **Menecment və sahibkartlaq fəaliyyətinin təşkili. İnnovasiya menecmenti – 4 saat**

Sahibkarlıq fəaliyyətinin təşkili. Sahibkarlıq və kiçik biznesin təşkili. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin hüquqi əsasları. İnnovasiya menecmenti. Müəssisələrin idarə edilməsində yeniliklər. Təşkilatın idarə edilməsində yeniliklərin tətbiq

edilməsi texnologiyası. Yeniliklərin iqtisadi səmərəliliyi və qiymətləndirilməsi mexanizmi. İnnovasiya fəaliyyətinin əsas mərhələləri.

***Mövzu 15.*** **Dövlət idarəetməsi və bələdiyyə menecmenti – 4 saat**

Dövlət idarəetməsi anlayışı, məzmunu və formaları. Yerli özünüidarəetmənin prinsipləri və vəzifələri. Yerli özünüidarəetmənin iqtisadi əsasları. Bələdiyyə menecmentinin strukturu və təşkili.

## ƏDƏBİYYAT.

1. Menecmentin (idarəetmənin) əsasları. T.Quliyev, Bakı 2012;

2. Menecmentin əsasları. X.M.Yahudov, Bakı 2007;

3. Menecment. Ə.Ələkbərov, F.İbrahimov Bakı 2004;

4. İqtisadiyyatın idarə edilməsi. T.Mirzəyev, Bakı 2006;

5. Menecmentin əsasları. Vixanskiy, 1998;

6. K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov Menecment, Bakı – 2007;

7. K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov. Dövlət və bələdiyyə idarəçiliyi Bakı – 2010;

8. Menecmentin əsasları. X.Zahidov, Bakı 2007.